**SUAL**

Əhli-sünnə camaatı nə üçün namaz qılanda əllərini bağlayır? Məgər həzrət Muhəmməd (s) namaz qılanda əllərini bağlayıb?!

**CAVAB:**

Əli bağlı namaz qılmaq 2-ci xəlifə Ömər ibn əl-Xəttabın vaxtında meydana gəlmiş bir əməldir, bütün səhih hədislər bunu bildirir ki, həzrət Muhəmməd (s) əlləri açıq halda namaz qılmışdır. Əli bağlı namaz qılmağın həzrət Muhəmmədin (s) sünnəsinə qətiyyən aidiyyəti yoxdur, və bu əməl yəni əli bağlı namaz qılmaq bidətdir.

***Hər şeydən əvvəl Əhli-sünnə camaatının alimlərinin "əlibağlı" kəlməsinin lüğəvi mənası barədə nəzərlərinə diqqət yetirək.***

Lüğətdə "namazda əlibağlamaq":

Onu deyək ki, namazda "əlibağlı" durmaq Əhli-sünnə fiqhində 2 kəlmə ilə ifadə edilir. "Təkfir" və "Təkəttuf" kəlmələri "namazda əlibağlı durmaq" mənasındadır.

İbn Əsir deyir:

التكفير ، وهو وضع اليدين على الصدر ، والانحناء ، خضوعا واستكانة .

"Təkfir" itaətkarlıq və acizliyi göstərmək məqsədi ilə iki əli sinəyə qoymaqdır.

ən-Nihayə fi ğəribil hədis 4-cü cild 100-cü səhifə

Lüğət elminin başqa bir məşhur alimi Cövhəri deyir:

والتكفير أن يخضع الإنسان لغيره كما يكفر العلج للدهاقين، يضع يده على صدره ويتطامن له.

"Təkfir budur ki, insan başqası üçün itaətkarlıq etsin, necə ki, dördayaqlı öz sahibi üçün itaətkarlıq edir, yəni insan ona itaətkarlıq məqsədi ilə əlini sinəsinə qoysun.

əs-Sihah 2-ci cild 808-ci səhifə

Lüğət elminin digər məşhur alimi Zəbidi deyir:

والتكفير : أن يخضع الإنسان لغيره وينحني ويطأطئ [أحدهم] رأسه قريبا من الركوع ، كما يفعل من يريد تعظيم صاحبه ، ومنه حديث أبي معشر : «أنه كان يكره التكفير في الصلاة». وهو الانحناء الكثير في حالة القيام قبل الركوع . وتكفير أهل الكتاب أن يطأطئ رأسه لصاحبه كالتسليم عندنا . وقد كفر له . وقيل : هو أن يضع يده أو يديه على صدره.

"Təkfir": budur ki, insan başqası üçün itaətkarlıq edə, belini əyə, bir nəfər rükuya getməyə yaxın həddə qədər aşaqğı sala, öz sahibinə təzim etmək istəyən şəxs kimi. Əbi Məşərin söylədiyi də bu qəbildəndir: "O, namazda əli bağlamağı xoşlgəlməz əməl sayırdı" O rükuya getməmişdən əvvəl qiyam halında əyilməyə meylli duruş formasıdır. Əhli-kitabın (xristianlar və yəhudilərin) "Təkfir" duruşu bir-birlərinə başlarını əyməkdir, necə ki, biz bunu bir-birimizlə salamlaşanda edirik. Həmçinin belə deyilib ki, "Təkfir bir əlini ya hər iki əlini sinəyə qoymaqdır."

Tacul ərus 7-ci cild 455-ci səhifə

## BİRİNCİ MƏSƏLƏ

Şiələr bütün əməllərini Peyğəmbərlərin sonuncusu və ən fəzilətlisi həzrət Muhəmməd si və səlləmin sünnəsinə uyğun edirlər, çünki bu əqidədədirlər ki, Allah Taala Peyğəmbəri (s) bizlərə ülgü və nümunə qərar verib.

لقَدْ كَانَ لَكُمْ فِي رَسُولِ اللَّهِ أُسْوَةٌ حَسَنَةٌ
Həqiqətən Allahın Rəsulu(s) sizin üçün gözəl bir nümünədir.
Əhzab surəsi 21-ci ayə

Həmçinin Allahın Rəsulunun(s) sünnəsinə tabe olmağın qəti dəlillərlərdən biri də Əhli-Beytə tabe olmaq və Allahın Rəsulunun(s) sünnəsini Əhli-beytdən öyrənməkdir. Bu məsələ üçün iki əsas dəlil vardır.

**1- Əhli-beytə tabe olmağın vacibliyi**

12 imamçı şiələr aşağıdakı dəlillərə əsasən Allahın Rəsulunun(s) sünnəsini Əhli-beyt imamlarından başqa heç kimdən götürməyi düzgün bilmir.

**a- Səqəleyn hədisi**

Bütün müsəlman məzhəblərinin etiraf etdikləri “Səqəleyn” hədisi bu dəlillərin biridir. Əhli-sünnə camaatının böyük hədisçiləri və alimlərinin əksəriyyəti bu səhih hədisi nəql etmişlər.

« قام رسول الله [صلى الله عليه وآله] يوماً فينا خطيباً، بماء يدعى خمّاً بين مكة والمدينة، فحمد الله وأثنى عليه، ووعظ وذكرَّ، ثم قال: أمّا بعد، ألا أيها الناس!.. وأنا تارك فيكم ثقلين: أولهما كتاب الله....... ثم قال: وأهل بيتي أذكركم الله في اهل بيتي، أذكركم الله في أهل بيتي، أذكركم الله في أهل بيتي».
Bir gün Allahın Rəsulu(s) Məkkə ilə Mədinə arasında Xum adlanan yerdə bizim üçün xütbə söylədi, belə ki, Allahı həmd və tərif etdi, moizə və nəsihət etdi, sonra buyurdu: Mən iki qiymətli şeyi sizin aranızda qoyuram, onun biri Allahın kitabıdır... Sonra buyurdu: və mənim Əhli-beytimdir, mənim Əhli-beytim barədə Allahı yada salın, mənim Əhli-beytim barədə Allahı yada salın, mənim Əhli-beytim barədə Allahı yada salın.
Səhihi Muslim 4-cü cild 1873-cü səhifə bab fəzailu Əli ibn Əbi Talib

Həmçinin Əbu Səid Xidri və Zeyd ibn Ərqəm nəql etmişlər ki, Allahın Rəsulu(s) belə buyurdu: Mən sizin aranızda iki qiymətli şeyi qoyuram, əgər bunlardan möhkəm yapışsanız Məndən sonra heç vaxt azmazsınız. Biri digərindən böyükdür. Allahın kitabı hansı ki, göydən yerə uzadılmış ipdir, və mənim itrətim olan Əhli-beytim. Bu ikisi (qiyamət günü Kövsər) hovuzunda mənim yanıma gələnə qədər bir-brlərindən ayrılmazlar, məndən sonra bu ikisi ilə necə rəftar edəcəyinizdən ehtiyatlı olun.
Sunənu Tirmizi 5-ci cild 329-cu səhifə
Musnədu Əhməd ibn Hənbəl 3-cü cil 14, 17, 26 və 29-cu səhifələr, 5-ci cild 182-ci səhifə (azacıq fərqlə)
Sunənul Kubra Nisai 5-ci cild 51-ci səhifə 8175-ci hədis
əl-Mustədrək us-Səhihəyn 3-cü cild 109-110-cu səhifələr. Bu kitabın müəllifi Hakim yazır: “Buxari və Muslimin şərtlərinə əsasən bu hədis səhihdir, amma onlar bu hədisi bütünlüklə yazmamışlar.
Səhih əl-camius səğir 1-ci cild 482-ci səhifə 2457-ci hədis. Bu kitabın müəllifi Əlbani də bu hədisin səhih olduğunu bildirmişdir.

Əhli-beytin kimlərdən ibarət olduğuna gəlincə isə Əhli-sünnə camaatının məşhur imamlarından sayılan Tirmizi özünün sünənində bunu belə bildirir:

« لما نزلت هذه الآية على النبي صلى الله عليه وآله: إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيراً في بيت أم سلمة، فدعا فاطمة وحسناً وحسيناً، فجللهم بكساء وعلي خلف ظهره، فجلله بكساء، ثم قال: اللهم، هؤلاء أهل بيتي، فاذهب عنهم الرجس وطهرهم تطهيراً، قالت أم سلمة: وأنا معهم يا رسول الله؟ قال: أنت على مكانك وأنت إلى خير»

“Həqiqətən Allah, siz Əhli-beytdən bütün çirkinlikləri uzaqlaşdırmış və sizi paklığın bütün cəhətlərində pak etmişdir(əhzab surəsi 33-cü ayə) ayəsi nazil olduqda Allahın Rəsulu(s) Ümmü Sələmənin evində idi. Fatiməni, Həsəni və Hüseyni yanına çağırdı və onları əbası ilə örtdü, Əli onun arxasında idi, onu da əbası ilə örtdü sonra buyurdu: “ey Allahım, mənim Əhli-beytim bunlardır, elə isə bütün çirkinlikləri bunlardan uzaqlaşdır və bunları pak qərar ver.” Ümmü Sələmə dedi: “ey Allahın Rəsulu, mən də bunlarlayammı?” Allahın Rəsulu(s) buyurdu: “Sənin öz dərəcən var və sən yaxşısan”(Əhli-beytdən deyilsən)
Sunəni Tirmizi 5-ci cild 328-ci səhifə
Əlbani bu hədisin səhih olduğunu bildirmişdir( bax Səhihu sunənut Tirmizi 3-cü cild 306-cı səhifə 3205-ci hədis)
Camiul bəyan (müəllif Təbəri) 22-ci cild 12-ci səhifə 21736-cı hədis
Muşkilul asar (müəllif Təhavi) 1-ci cild 335-ci səhifə

Burada bilinməsi lazım olanlardan biri də yuxarıdakı hədisə gəlmiş “yapışsanız” kəlməsidir. Ərəbcə bu kəlməyə “Təməssuk” deyilir. Hədisin ərbcə mətnində “Təməssuk” kəlməsi işlənib. Əhli-sünnə camaatının məşhur alimlərindən olan Molla Əli Qari deyir:

«...والمراد بالأخذ بهم، التمسك بمحبتهم ومحافظة حرمتهم والعمل برواياتهم والاعتماد على مقالتهم».

“Təməssuk” kəlməsindən məqsəd onların məhəbbətindən yapışmaq, onlara hörmət etmək, onların hədislərinə əməl etmək, onların sözlərinə etimad etməkdir.”
Mirqatul məfatih 9-cu cild 3974-cü səhifə bab mənaqibu Əhlu-bəytin nəbi s.
Həmçinin buna oxşar mənanı Əhli-sünnə camaatının başqa bir məşhur alimi əl-Mənavi özünün Feyzul Qədir əsərində qeyd etmişdir:
Feyzul Qədir şərhul camius səğir 3-cü cild 20-ci səhifə

**b- Səfinə hədisi**

Əhli-beytə tabe olmağın vacibliyini təsdiq edən məhkəm və qəti dəlillərdən biri də “Səfinə hədisi”dir. Bu hədisi hənbəli məzhəbinin imamı Əhməd, eləcə də Əhli-sünnə camaatının çoxlu sayda hədisçiləri və alimləri nəql etmiş, hədisin sənədinin səhih olduğuna etiraf etmişlər.

« سمعت أبا ذر يقول وهو آخذ بباب الكعبة: من عرفني فأنا من قد عرفني، ومن أنكرني فأنا أبو ذر سمعت النبي صلى الله عليه وآله يقول: ثم ألا إنّ مثل أهل بيتي مثل سفينة نوح من ركبها نجا ومن تخلف عنها هلك».

Eşitdim ki, Əbuzər Kəbənin qapısından tutmuş halda deyir: məni tanıyanlar tanıyırlar, məni tanımayanlar isə bilsinlər ki, mən Əbuzərəm. Allahın Rəsulundan(s) eşitdim ki, buyurdu: “Agah olun, mənim Əhli-beytimin misalı Nuhun gəmisi kimidir, kim ona minərsə nicat tapar, kim ona minməzsə həlak olar.”
Fəzailus səhabə, Əhməd ibn Hənbəl 2-ci cild 785-ci səhifə
əl-Mustədrəkus səhiheyn 2-ci cild 343-cü səhifə
əl-Mucəmul kəbir 3-cü cild 44-45-ci səhifələr
əl-Mucəmul əvsət 4-cü cild 20-cu səhifə. 5-ci cild 306-cı səhifə
əl-Mucəmus səğir 1-ci cild 139-cu səhifə, 2-ci cild 22-ci səhifə
Tarixu Bağdad 12-ci cild 90-cı səhifə
Hilyətul övliya 4-cü cild 306-cı səhifə

Bu hədisi Əhli-sünnə camaatının məşhur alimi əl-Mənavi belə şərh etmişdir:

قال المناوي: «ووجه تشبيههم بالسفينة أنّ من أحبهم وعظّمهم شكراً لنعمة جدهم وأخذ بهدي علمائهم نجا من ظلمة المخالفات، ومن تخلف عن ذلك غرق في بحر كفر النعم وهلك في معادن الطغيان».

"Əhli-beytin bu hədisdə Nuhun gəmisinə bənzədilməsinin mənası budur ki, kim onların babalarının(Peyğəmbərin) nemətinə xatir onları sevərsə, onlara ehtiram edərsə, onların alimlərinin göstərdikləri yol ilə gedərsə səhv və yanlışlıq qaranlığından nicat tapar. Kim onlardan üz döndərərsə nemətlərə küfr edərək danmaq dənizində qərq olar və tüğyan çeşmələrində həlak olar."
Feyzul Qədir 5-ci cild 660-cı səhifə

## İKİNCİ MƏSƏLƏ

Peyğəmbərin(s) necə namaz qılması barədə şiə və əhli-sünnə camaatının kitablarından dəlilləri nəql etməzdən əvvəl İmamların əleyhimus salam, eləcə də şiə və sünni alimlərinin "Təkfir" əlləri bağlı namaz qılmaq barədə rəylərinə nəzər salaq.

والنهي في صحيح محمد بن مسلم عن أحدهما ( عليهما السلام ) قلت له : الرجل يضع يده في الصلاة وحكى اليمنى على اليسرى فقال : ذلك التكفير لا تفعله.
Muhəmməd ibn Muslim öz səhihində imam Muhəmməd Baqir ya Cəfər Sadiq əleyhissalamdan nəql edir ki, o həzrətə dedim: bir nəfər namazda sağ əlini sol əlinin üstünə qoyur. İmam buyurdu: Buna "təkfir" deyirlər, sən belə etmə.
Vəsailuş şiə 7-ci cild265-ci səhifə 9295-ci hədis
Təhzibul əhkam 2-ci cild 84-cü səhifə 310-cu hədis

Zürarə öz həsənində imam Muhəmməd Baqir əleyhissalamdan nəql edir ki, buyurdu:

لا تُكَفِّر فإنما يصنع ذلك المجوس

"Namazda əlləri bağlama, çünki bu odpərəstlərin işidir."
Vəsailuş şiə 7-ci cild 266-cı səhifə 9296-cı hədis
əl-Kafi 3-cü cild 299-cu səhifə 1-ci hədis
Təhzibul əhkam 2-ci cild 84-cü səhifə 309-cu səhifə

İmam Muhəmməd Baqir əleyhissalam buyurdu:
وعن حريز عن رجل عن أبي جعفر (ع) لا تُكَفِّر إنما يصنع ذلك المجوس.

"Əlləri bağlı namaz qılma. Həqiqətən odpərəstlər belə edirlər."
Vəsailuş şiə 7-ci cild 266-cı səhifə 9297-ci hədis
əl-Kafi 3-cü cild 336-cı səhifə 9-cu hədis

Cəvahirul Kəlam kitabında oxuyuruq:

فالمشهور بين الأصحاب نقلا وتحصيلا بل في الخلاف والغنية والدروس وعن الانتصار الاجماع عليه عدم جوازه في الصلاة ، بل لا أجد فيه خلافا إلا من الإسكافي فجعل تركه مستحبا ، وأبي الصلاح ففعله مكروها ، واختاره المصنف في المعتبر للاجماع المحكي المعتضد بالتتبع.
Buna əsasən alimlər arasında həm rəvayət həm də fətva cəhətindən məşhur olan, üstəlik icma bundan ibarətdir ki, namazda əlləri bağlamaq olmaz, mən yalnız Əskafinin onu tərk etməyi müstəhəb bilməsi, bir də Əbu Sәlah Hәlәbinin onu etməyin məkruh olmasından başqasını

görməmişəm. Əlmutəbər kitabının müəllifi namazda əlibağlı olmağın qadağan olması hökmünün icma olduğunu bildirmişdir.
Cəvahirul kəlam 11-ci cild 15-ci səhifə

Seyyid Yəzdi bu barədə "Namazı batil edən şeylər"i sayaraq deyir:

الثالث : التكفير بمعنى وضع إحدى اليدين على الأخرى على النحو الذي يصنعه غيرنا إن كان عمدا لغير ضرورة ، فلا بأس به سهوا ، وإن كان الأحوط الإعادة معه أيضا

Üçüncü məsələ:
Namazda "təkfir" yəni əllərin birini digərinin üstünə qoyaraq namaz qılmaq, necə ki, bizdən başqaları (əhli-sünnə) belə edirlər, əgər qəsdən və zərurət olmadan olarsa namaz batildir. Amma əğər səhvən (yaddan çıxaraq) olsa eyibi yoxdur, Hərçənd ehtiyat budur ki, həmin namazı yenidən qılsın.

əl-Urvətul vusqa 3-cü cild 6-7-ci səhifələr

Əhli-sünnə camaatının alimlərinin nəzərləri
Bütün dünyada əhli-sünnə camaatı 4 məzhəbə tabedirlər. Bu dörd məzhəbin heç biri namazda əlləri bağlamağı vacib əməllərdən saymır, namazın müstəhəb əməllərindən bilirlər.
Əbdürrəhman Cəziri özünün Dörd məzhəbin fiqhi kitabında yazır:

يسن وضع اليد اليمنى على اليسرى تحت سرته أو فوقها وهو سنة باتفاق ثلاثة من الأئمة

Namaz qılarkən sağ əli sol əlin üstünə qoymaq, göbəkdən yuxarıda ya göbəkdən aşağıda tutmaqla, sünnətdir. Bu əməl bizim dörd məzhəbdən üçünün nəzərinə əsasən sünnətdir.
əl-Fiqh ələl məzahibil ərbəə 1-ci cild 251-ci səhifə kitabus səlat bab vəzul yədul yumna ələl yusra fissəlat

Deməli, şiələrin əli açıq namaz qılmaqları heç də vacib əməli tərk etmək deyil. Ən uzağı (əhli-sünnənin gözü ilə baxsaq) məkruh etmək olur.
İkincisi, əhli-sünnənin Maliki məzhəbinin imamı və bu məzhəbin alimlərinin nəzəri əhli-sünnənin o biri üç məzhəbinin nəzəri ilə müxalifdir. Belə ki, hətta namazda əlləri bağlamağın müstəhəb olduğunu da qəbul etmirlər.
Malik ibn Ənəs (176-cı hicri ilində vəfat etmişdir) namazda sağ əli sol əlin üstünə qoymaq barədə deyir:

قال: لا أعرف ذلك في الفريضة ، وكان يكرهه ولكن في النوافل إذا طال القيام فلا بأس بذلك يعين به علي نفسه

"Vacibi namazda bu işi müstəhəb saymıram, bu məkruhdur(bəyənilmir), amma nafilələrdə əgər ayaq üstə çox dayanmalı olacaqsa özü üçün bundan kömək almağın eyibi yoxdur."
əı-Mudəvvənətul Kubra (imam Malik) 1-ci cild 74-cü səhifə əlitimad fissəlati vəl ittika

Məbar Kifuri deyir:

وقال المالكية بإرسال اليدين في الصلاة قال الحافظ بن القيم في الأعلام بعد ذكر أحاديث وضع اليدين في الصلاة ما لفظه فهذه الآثار قد و ردت برواية القاسم عن مالك قال تركه أحب إلي وأعلم شيئا قد ردت به سواه انتهى

"Malikilərin əqidəsi namazda əlləri açıq dayanmaqdır. Hafiz ibn Qəyyim özünün əl-Əlan əsərində namazda əlləri bağlamaq barədə olan hədisləri qeyd etdikdən sonra elə bir şey deyir ki, onun dedikləri olduğu kimi belədir: Bu hədislər rədd edilmişdir. Qasim ibn Malikin rəvayətinə

əsasən ki, o deyir: Mənim nəzərimdə onu (əlibağlı namaz qılmağı) tərk etmək daha yaxşıdır, mən elə şeyləri bilirəm ki, onunla bütün başqa nəzərlər rədd olur.”
Tuhfətul əhvəzi 2-ci cild 73-75-ci səhifələr

Səmərqəndi Hənəfi deyir:

قال مالك : السنة هي ارسال اليدين حالة القيام .

“Malik deyir: sünnət budur ki, namazda qiyam halında əlləri aşağı sallayasan.”
Tuhfətul fuqəha 1-ci cild 126-cı səhifə kitabus səlat bab iftitahus səlat

İbn Ruşd Əndəlusi bu barədə deyir:

اختلف العلماء في وضع اليدين إحداهما على الأُخرى في الصلاة، فكره ذلك مالك في الفرض وأجازه في النفل ورأى قوم أنّ هذا الفعل من سنن الصلاة وهم الجمهور، والسبب في اختلافهم أنّه قد جاءت آثار ثابتة نقلت فيها صفة صلاته عليه الصلاة والسلام، ولم ينقل فيها أنّه كان يضع يده اليمنى على اليسرى.

Alimlər namazda əlləri birinin digərinin üstünə qoyulması barədə ixtilaf etmişlər. Buna əsasən Malik onu vacibi namazda bəyənilməz əməllərdən sayır və müstəhəbbi namazda ona icazə verir. Başqa bir dəstə alimlər isə onu namazda müstəhəb əməl sayırlar və onlar alimlərin əksəriyyətidir. Onların ixtilafının səbəbi budur ki, Peyğəmbərin (s) namazının necəliyi barədə nəql edilən mötəbər hədislərin heç birində deyilməyib ki, Peyğəmbər (s) sağ əlini sol əlinin üstünə qoyaraq namaz qılmış ola.
Bidayətul muctəhid 1-ci cild 112-ci səhifə kitabus səlat

## ÜÇÜNCÜ MƏSƏLƏ

Çoxlu sübutlar mövcuddur ki, “təkəttuf” (namazda əlləri bağlamaq) camaatın özlərinin uydurmalarındandır və bu işin vacib ya müstəhəb olmasına dair heç bir dəlil yoxdur. Deməli namazı əlibağlı qılmaq artırılma əməllərdəndir və hər bir artırılma əmələ sübut və dəlil lazımdır. Bu işin dəlili olmadığı üçün bunu tərk etmək lazımdır.
İbn Ruşd Qurtubi deyir:

قال ابن رشد القرطبي: وثبت أيضاً أنّ الناس كانوا يؤمرون بذلك ، وورد ذلك أيضاً من صفة صلاته في حديث أبي حميد فرأى قوم أنّ الآثار التي أثبتت ذلك اقتضت زيادة على الآثار التي لم تنقل فيها هذه الزيادة وأنّ الزيادة تجب أن يصار إليها ورأى قوم أنّ الأوجب المصير إلى الآثار التي ليس فيها هذه الزيادة لأنّها أكثر ولكون هذه ليست مناسبة لأفعال الصلاة وإنّما هي من باب الاستعانة ولذلك أجازها مالك في النفل ولميجزها في الفرض....

Həmçinin sübut edilmişdir ki, camaatı əlləribağlı namaz qılmağa əmr edirlərmiş, və Peyğəmbərin namazının necəliyi barədə Əbu Həmidin nəql etdiyi hədisdə də bu mövzu qeyd edilmişdir. Bəziləri bu əqidədədirlər ki, bu artirılma(əlibağlı namaz qılmaq) namazda olmalıdır və bu artq əməli o hədislərə əlavə etmək lazımdır. Başqa bir dəstə isə bu əqidədədirlər ki, bu artıq əməlin olmadığı hədislərin çoxluğunu nəzərə alaraq, habelə əlləri bağlı namaz qılmağın ümumiyyətlə namazın əməlləri ilə düz gəlmədiyini nəzərə alaraq bunu kömək almaq kimi dəyərləndirmək olar, elə buna görə də Malik müsəhəbbi namazda buna icazə verir, amma vacibi namazda buna icazə vermir.
Bidayətul muctəhid 1-ci cild 112-ci səhifə əlməsələtus sabiə

Namazda əlləri bağlamağın ən mühüm dəlili Buxarinin nəql etdiyi hədisdir, bu hədisdə qeyd edilib ki “insanlara əmr edilirdi”, və bu hədisdə deyilməyib ki, Peyğəmbər (s) sağ əli sol əlin üstünə qoyaraq namaz qılın deməş ola. Deməli bu hədis qətiyyən bu işin Peyğəmbərin (s) sünnəsi olmasına sübut ola bilməz. Hətta bu işin sünnət olmasını fərz etsək belə bu işin olmadığını bəyan edən çoxlu sayda mötəbər hədislər bu hədisin höccət və sübut olmasını rədd

edir.
Buxarinin bu hədisinin tam mətninə nəzər salaq:

فروى عن عَبْدِ اللَّهِ بْنُ مَسْلَمَةَ، عَنْ مَالِكٍ، عَنْ أَبِي حَازِمٍ، عَنْ سَهْلِ بْنِ سَعْدٍ، قَالَ كَانَ النَّاسُ يُؤْمَرُونَ أَنْ يَضَعَ الرَّجُلُ الْيَدَ الْيُمْنَى عَلَى ذِرَاعِهِ الْيُسْرَى فِي الصَّلاَةِ . قَالَ أَبُو حَازِمٍ لاَ أَعْلَمُهُ إِلاَّ يَنْمِي ذَلِكَ إِلَى النَّبِيِّ صلى الله عليه وسلم. قَالَ إِسْمَاعِيلُ يُنْمَى ذَلِكَ. وَلَمْ يَقُلْ يَنْمِي.

Əbu Hazim deyir: Səhl ibn Səd dedi: “Camaata əmr edilirdi ki, namaz qılanda sağ əli sol əlin üstünə qoysunlar.” Əbu Hazim deyir: “bu hədisin mövzusu barədə bircə onu bilirəm ki, bu işi Peyğəmbərə (s) nisbət verirlər.” İsmail deyir: “bu mövzu nisbət verilib, və demir ki, onun özü nisbət verib.”
Səhihi Buxari 1-ci cild 181-ci səhifə 740-cı hədis bab vəzul yumna ələl yusra

## DÖRDÜNCÜ MƏSƏLƏ

Bu nəzəriyyəni qəbul etməyən tabein və əhli-sünnənin böyük alimləri.

قال النووي المتوفى 676: قد ذكرنا أنّ مذهبنا أنّه سنَّة... وحكى ابن المنذر عن عبدالله بن الزبير والحسن البصري والنخعي أنّه يرسل يديه ولا يضع إحداهما على الأُخرى وحكاه القاضي أبو الطيب أيضاً عن ابن سيرين وقال الليث بن سعد: يرسلهما، فإن طال ذلك عليه وَضَعَ اليمنى على اليسرى للاستراحة.

وقال الأوزاعي: هو مخيّر بين الوضع والإرسال، وروى ابن عبدالحكم عن مالك: الوضع، وروى عنه ابن القاسم: الإرسال وهو الأشهر وعليه جميع أهل المغرب من أصحابه أو جمهورهم واحتجّ لهم بحديث المسيء صلاته بأنّ النبي صلي الله عليه وسلم علَّمه الصلاة ولم يذكر وضع اليمنى على اليسرى....

Nəvəvi deyir: Qeyd etdik ki, bizim əqidəmizə əsasən namazda əlləri bağlamaq sünnətdir... İbn Munzirin sözlərinə əsasən Abdullah ibn Zubeyr, Həsən Bəsri və Nəxəi əlləri açıq halda namaz qılmışlar, bir əli o birinin üstünə qoymamışlar. Qazi Abutalib də İbn Sirindən bunu belə nəql etmişdir. Ləys ibn Səd deyir: namazda əllərini yanına sal, əgər yorulsan istirahət üçün sağ əlini sol əlinin üstünə qoy.
Əvzai deyir: Namazqılan namazda özü bilər, istəsə əlləri bağlı namaz qılsın istəsə əlləri açıq.
İbn Əbdülkərin Malikdən əlləri bağlamağı nəql edir, və İbn Qasim ondan rəvayət etmişdir ki, əlləri açıq namaz qılın, və ən məşhur bu sözdür, eləcə də bütün Məğrib camaatı, onların dostları və ardıcılları bu əqidədədirlər. Onların sübutları da Peyğəmbərdən (s) rəvayət olunmuş hədisdə sağ əli sol əlin üstünə qoymaq əməlinin olmamasıdır.
əl-Məcmu 3-cü cild 312-ci səhifə

## BEŞİNCİ MƏSƏLƏ

Biz bilirik ki, namaz təəbbudi əmrdir, yəni Allah Taala namazda hansı hərəkətləri etmək və hansı zikrləri demək tərzini Peyğəmbərə (s) necə öyrədibsə elə də qılmalıyıq. Özümüzdən heç nə artıra ya əskildə bilmərik.
Allahın Rəsulu (s) buyurur:

صلوا كما رايتموني اصلي

“Namazı mənim necə qıldığımı gördüyünüz kimi qılın.”
Səhihi Buxari 1-ci cild 155-ci səhifə kitabul əzan

Nəvəvi bu hədisin şərhində yazır:

و هذا مقتضي وجوب كل ما فعله النبي صلي الله عليه و سلم الا ما خرج وجوبه بدليل كرفع اليدين و نحوه.

Bu hədis hökm edir ki, Peyğəmbərin (s) etdiyi bütün hərəkətlər vacibdir. Yalnız o işlərdən başqa ki, onun vacibliyi başqa dəlil vasitəsilə götürülmüş ola, əlləri yuxarı qaldırmaq və sair bu kimi.
əl-Məcmu 3-cü cild 290-cı səhifə

Qeyd edilən yazılardan bu məlum oldu ki, Allaha daha çox təvazökarlıq və itaətkarlıq göstərmək məqsədi ilə əlləri bağlı halda namaz qılmaq əməli kökündən batildir, hətta bidətdir. Çünki bunu qəbul etməyin mənası budur ki, kimlərsə Peyğəmbərdən (s) daha yaxşı biliblər ki, Allaha necə itaətkarlıq etmək olar. Bu həqiqətdə Peyğəmbərə (s) atılan bir iftiradır. Çünki əgər namazda Allaha itaətkarlığın daha yaxşı yolu olsaydı, Rəhman və Rəhim olan Allah onu bəndələrinə öyrədərdi.

## ƏHLİ-SÜNNƏ KİTABLARINDA PEYĞƏMBƏRİN (s) ƏLLƏRİ AÇIQ NAMAZ QILMASI DƏLİLLƏRİ

Şiə hədislərində Peyğəmbərin (s) əlləri açıq namaz qılması barədə rəvayətlərdən əlavə, əhli-sünnənin ən mötəbər kitablarında Peyğəmbərin (s) əlləri açıq namaz qıldığı barədə çoxlu hədislər var. O hədislərin ən mötəbərlərində birini nəql edirık.

روى محمد بن عمر وابن عطاء قال : سمعت أبا حميد الساعدي في عشرة من أصحاب رسول الله صلى الله عليه وسلم منهم أبو قتادة فقال أبو حميد : أنا أعلمكم بصلاة رسول الله صلى الله عليه وسلم قالوا : فأعرض قال : كان رسول الله صلى الله عليه وسلم إذا قام إلى الصلاة يرفع يديه حتى يحاذي بهما منكبيه ثم يكبر حتى يقر كل عظم في موضعه معتدلا ثم يقرأ ثم يكبر فيرفع يديه حتى يحاذي بهما منكبيه ثم يركع ويضع راحتيه على ركبتيه ثم يعتدل فلا يصوب رأسه ولا يقنعه ثم يرفع رأسه ويقول سمع الله لمن حمده ثم يرفع يديه حتى يحاذي منكبيه معتدلا ثم يقول : الله أكبر ثم يهوي إلى الأرض فيجافي يديه عن جنبيه ثم يرفع رأسه ويثني رجله اليسرى فيقعد عليها ويفتح أصابع رجليه إذا سجد ويسجد ثم يقول الله أكبر ويرفع ويثني رجله اليسرى فيقعد عليها حتى يرجع كل عظم إلى موضعه ثم يصنع في الأخرى مثل ذلك ....قالوا : صدقت هكذا كان يصلي صلى الله عليه وسلم.

Məhəmməd ibn Ömər və İbn Əta rəvayət ediblər, Əbu Həmid Saidi həzrət Peyğəmbərin (s) on nəfər səhabəsindən eşitdi ki, o on nəfərin biri Əbu Qutadə idi. Əbu Həmid orada dedi: Peyğəmbərin (s) necə namaz qıldığını mən sizin hamınızdan yaxşı bilirəm. Ona dedilər: Elə isə namazı qılaraq göstər. O dedi: Allahın Rəsulu (s) namaza durduqda əllərini qulaqlarının yaxınlığına qədər qaldırardı və sonra təkbir deyərdi. Ta ki, bədəninin hər üzvü öz yerində qərar tutardı (adi dayanma ilə durardı), sonra Fatihə surəsini və bir başqa surə oxuyardı, sonra təkbir deyərdi, sonra iki əlini qulaqlarının yaxınlığına qədər qaldırardı, sonra rükuya gedərdi və iki əlinin ovucunu dizlərinə qoyardı, sonra aram olardı, başını nə yuxarı qaldırmazdı və nə də çox aşaqğı sallamazdı, səmiəllahu limən həmidəh(Allah onu həmd edəni eşidir) zikrini deyərək əllərini qulaqlarının yaxınlığına qədər qaldırardı, sonra Allahu əkbər deyərək özünü yerə atardı, əlinin iki ovucunu yanına qoyardı, sonra başını yuxarı qaldırar və sol ayağı üstə oturardı, səcdə etdikdə hər iki ayağının barmaqlarını açar və səcdə edərdi, sonra Allahu əkbər deyərək durar və sol ayağı üstə oturardı, bütün vücudu aram olduqdan sonra yenidən səcdəyə gedərdi həmin işi yenidən səcdədə təkrar edərdi ....
Onların hamısı dedilər: Düz dedin, Peyğəmbər (s) namazı belə qılardı.

Malik ibn Ənəs əl-Muvəttə kitabında, Əbu davud və Tirmizi öz sünənlərində bu hədisi nəql etmişlər. Tirmizi bu hədis barədə deyib: Bu hədis gözəl səhih hədisdir.
Sünəni ibn Macə 1-ci cild 280-c- səhifə
Sünəni Əbu Davud 1-ci cild 170-ci səhifə kitabus səlat bab iftitahus səlat
Sünəni Tirmizi 1-ci cild 188-ci səhifə bab ma caə si vəsfissəlat
Müsnədu əhməd ibn Hənbəl 5-ci cild 424-cü səhifə
Sünəni Darami 1-ci cild 314-cü səhifə kitabus səlat bab sifət səlati RəsulAllah

Sününul Kubra Beyhəqi 2-ci cild 72-ci səhifə
Umdətul Qari 6-cı cild 104-cü səhifə
Səhihi ibn Həban 5-ci cild 196-cı səhifə
Və sair kitablar...
Bu hədisi Buxari ixtisarla nəql etmişdir, bax:
Səhihi Buxari 1-ci cild 201-ci səhifə bab sünnətul cülus fit-təşəhhud

Şövkani deyir:

قال الشوكاني: رواه الخمسة إلا النسائي ، وصححه الترمذي ، ورواه البخاري مختصرا.

"Bu hədisi Nisaidən başqa 6 səhih kitabımızın hamısı nəql etmişlər, Tirmizi bu hədisin səhih olduğunu sübut etmişdir, Buxari də bu hədisi ixtisarla da olsa nəql etmişdir."
Nəylul əvtar 2-ci cild 198-ci səhifə

İbn Həcər deyir:

قال ابن حجر: رواه أبو داود والترمذي وصحّحه.

"Bu hədisi Əbu Davud və Tirmizi nəql etmişlər, Tirmizi bu həsisin səhih olduğunu bildirib."
Təlxisul hubəyr 3-cü cild 271-272-ci səhifələr

Göründüyü kimi bu hədisdə məqsəd bundan ibarət olub ki, həzrət Muhəmmədin (s) qıldığı namaz bütün xırdaçılıqlarına qədər bəyan edilərək göstərilsin. Burada əl bağlamaqdan əsər əlamət yoxdur. Bu hədisdən məlum olur ki, Şiələrin və Malikilərin namaz qılarkən əlləri açıq dayanmaları tamamilə həzrət Peyğəmbərin (s) sünnəsinə uyğun bir əməldir. Deməli necə deyərlər "top əhli-sünnənin o biri üç məzhəbinin meydanındadır." Onlar gərək cavab versinlər ki, hansı əsasla həzrət Peyğəmbərin (s) etmədiyi əməli namaza daxil etmişlər?!
Biz burada əsasən əhli-sünnənin birinci dərəcəli və ən mötəbər kitablarından dəlillər gətirdik, bu barədə şiə kitablarının hamısı namazın əliaçıq qılınmasının vacibliyi hədislərindən ibarətdir. Heç bir şiə kitabında əli açıq qılınmağa zidd olan bir hədis belə yoxdur.

## ALTINCI MƏSƏLƏ

Təsəvvür edin ki, hətta Peyğəmbərin (s) əlibağlı namaz qılmasını fərz etsək belə onda bu sual meydana çıxardı ki, elə isə əl necə bağlanmalıdır?
Əhli-sünnə alimləri mat qalıblar ki, camaata əllərini necə bağlatdırsınlar. Əl bağlamaq nə deməkdir? Necə olmalıdır? Əli hara qoymaq lazımdır? Nəzərlər çoxdur, bu nəzərlərin çoxluğu əlibağlı namaz qılmaq əməlinin həzrət Peyğəmbərə (s) aid olmadığının başqa bir açıq aşkar sübutudur.
Nəzərlərin ən məşhurlarına diqqət yetirək:
Hənəfilər deyirlər:
الحنفية قالوا : كيفيته تختلف باختلاف المصلي . فإن كان رجلا فيسن في حقه أن يضع باطن كفه اليمنى على ظاهر كف اليسرى محلقا بالخنصر والإبهام على الرسغ تحت سرته . وإن كانت امرأة فيسن لها أن تضع يديها على صدرها من غير تحليق
"Namazda əlləri bağlamağın müxtəlif yolları var, deməli əgər namaz qılan kişidirsə onun üçün yaxşıdır ki, sağ əlinin ovucunu sol əlinin arxasına qoysun və sol əlini böyük və orta barmaqları ilə tutaraq qarının üstündə, göbəyin aşağısında tutsun. Qadın üçün isə yaxşıdır ki, əllərini bir-birinə yapışdırmadan sinəsinə qoysun."

Hənbəlilər deyirlər:

الحنابلة قالوا : السنة للرجل والمرأة أن يضع باطن يده اليمنى على ظهر يده اليسرى ويجعلها تحت سرته
“Namazda əlləri bağlamaq həm kişi həm də qadın üçün sünnətdir, yaxşıdır ki, sağ əlin ovucunu sol əlin arxasına qoysunlar və onu göbəkdən aşağıda tutsunlar.”

Şafiilər deyirlər:

الشافعية قالوا : السنة للرجل والمرأة وضع بطن كف اليد اليمنى على ظهر كف اليسرى تحت صدره وفوق سرته مما يلي جانبه الأيسر .
“Kişi və qadın üçün müstəhəbdir ki, sağ əlin ovucunu sol əlin arxasına qoysunlar və göbəyin yuxarı hissəsində tutsunlar.”

əl-Fiqh ələl məzahibil ərbəə 1-ci cild 251-ci səhifə kitabus səlat bab vəzil yədil yumna ələl yuxra fis səlat

Burada hər bir oxucunun zehninə bu sual gələ bilər ki, bu əməllərin hansı Peyğəmbərin (s) sünnəsinə uyğundur?!
Əlləri göbəkdən yuxarı qoymaq yoxsa göbəkdən aşağı qoymaq?!
Hələ biz burada başqa rəyləri, əlləri sinəyə qoymağı, yana qoymağı ... demədik.
Bu məsələdə o qədər ixtilaf edilib ki, hətta bəzi əhli-sünnə alimləri bir-birlərini lağa qoymaqdan, ələ salmaqdan belə vaz keçməmişlər.

Şafiinin nəzərinə baxın:

وعند الشافعي رضى الله تعالى عنه الأفضل أن يضع يديه على الصدر لقوله تعالى فصل لربك وانحر قيل المراد منه وضع اليمين على الشمال على النحر وهو الصدر ولأنه موضع نور الايمان فحفظه بيده في الصلاة أولى من الإشارة إلى العورة بالوضع تحت السرة وهو أقرب إلى الخشوع والخشوع زينة الصلاة
“Şafiinin rəyi budur ki, namaz qılan şəxs əllərini sinəsinə qoysa daha yaxşıdır. Bəzi adamlar deyib ki, Allahın –fəsəlli lirəbbikə vənhər- ayəsindən məqsədi sağ əli sol əlin üstünə qoymaq deməkdir. Nəhrdən məqsəq sinədir, çünki sinə iman nurunun yerləşdiyi yerdir. Deməli, əlləri sinədə tutaraq imanı qorumaq, əllərini göbəkdən aşağıda tutaraq cinsiyyət aələtlərini işarə etməkdən daha yaxşıdır, bu iş itaətkarlığa daha yaxındır.”

əl-Məbsut (müəllif əs-Sərəxsi) 1-ci cild 24-cü səhifə

Burada bu sual qarşıya çıxır ki, məgər iman əl ilə toxunulası şeydirmi ki, hələ bir onu əl ilə tutub saxlamaq da mümkün ola? İkinci sual budur ki, deyin görək namaz qılmadığımız vaxtlarda necə edək ki, əllərimizi sinəmizə tutaraq imanı qoruya bilək?

Başqa bir gülməli ya bəlkə də ağlamalı fətvaya baxın:
Bəhuti bu sitatı Qazıdən nəql edir ki:

قيل للقاضي : هو عورة فلا يضعها عليه كالعانة والفخذ ؟ وأجاب : بأن العورة أولى وأبلغ بالوضع عليه لحفظه .

“Qaziyə deyildi: Göbəyin aşağısı övrətdir, deməli əlləri ora qoymaq olmaz. Qazi cavab verdi: Əksinə yaxşıdır ki, biz əllərimizi övrətin üstünə qoyaq və bu yolla övrətimizi qoruyaq.”
Kəşşaful qina (müəllif əl-Bəhuti) 1-ci cild 400-cü səhifə

Şeyx Sərəxsi bu əqidədədir ki, əlləri göbəkdən aşağı qoymağın iki xüsusiyyəti var:

... ثم الوضع تحت السرة أبعد عن التشبه بأهل الكتاب وأقرب إلى ستر العورة فكان أولى ...
“Əvvəlinci budur ki, insanı kafirlərə oxşamağa qoymur, ikinci budur ki, övrətin üstünü örtür, deməli bu yaxşı işdir.”
əl-Məbsut 1-ci cild 24-cü səhifə

## SƏUDİYYƏ ƏRƏBİSTANININ FƏTVA VERMƏ HEYƏTİNİN FƏTVASI

Bir çox hallarda görürük ki, əhli-sünnə camaatı şiələrin təşkil etdiyi camaat namazlarənda iştirak etməkdən boyun qaçırırlar. Səbəbini də imamcamaatın, yəni pişnamazın əlləri açıq namaz qılması ilə izah edirlər. Diqqətinizi Səudiyyə Ərəbistanının fətva heyətinin “əli bağlı namaz qılmağa maneşılik olan məscidlərdə namaz qılmaq” ilə əlaqədar suala verdikləri cavab hökmünə cəlb edirik:

إن اعترض عليه المصلون بالمسجد وخشي أن تحدث فتنة من وضع يده اليمنى على اليسرى في الصلاة وأن ينشأ عن ذلك ضرر، ترك القبض أرسل يديه اتقاء للفتنة والضرر ، ولا يجوز له أن يتخلف عن الجماعة ويصلي في بيته ما دام الإمام لا يعرف عنه ما يوجب كفره ؛ لأن الصلاة مع الجماعة في المسجد فرض على الصحيح ، وبهذا يعرف أن من يصلي واضعا يده اليمنى فوق اليسرى فوق صدره خير وأحسن صلاة ممن يصلي مرسلا يديه إلى جنبيه مع كون صلاتهم جميعا صحيحة .

وبالله التوفيق وصلى الله على نبينا محمد وآله وصحبه وسلم . اللجنة الدائمة للبحوث العلمية والإفتاء عضو نائب رئيس الجنة الرئيس عبد الله بن غديان عبد الرزاق عفيفي عبد العزيز بن عبد الله بن باز
Əgər məsciddə namaz qılan şəxsə etiraz edilsə və o, əli bağlı namaz qılmaqın fitnəyə səbəb olacağı və ona ziyan yetişəcəyindən qorxsa, gərək fitnə və ziyanın qarşısını almaq məqsədi ilə əli bağlı namaz qılmaqdan çəkinsin və əli açıq namaz qılsın. O camaat namazında iştirak etməyi tərk edə bilməz, eləcə də evində namazlarını qılsın nə qədər ki, imamcamaatın kafir olduğu sübut olunmayıb. Çünki səhih nəzərə əsasən məsciddə camaat namazını tərk etmək olmaz. Bununla yanaşı namazı qılanda sağ əli sol əlin üstünə qoymaq daha yaxşı olar, onun namazı əli açıq namaz qılanın namazından yaxşıdır. Hərçənd ki, onların hamısının namazları düzdür.
Fətava əllləcnətud daimətu lilbuhusil ilmiyyə və ifta (cəməə Əhməd ibn Əbsürrəzzaq əd-Duvəyş) 6-cı cild 383-384-cü səhifələr

Əgər namazda Allaha xüşu və ehtiramı necə etmək tərzi insanlara tapşırılmış olsaydı, dünyada ölkələrin eləcə də həmin ölkələrdə yaşayan xalqlar, millətlər, tayfalar və nəsillərin çoxluğunu və onların hər birlərinin müxtəlif adət-ənənələrini nəzərə almaqla gərək indi yer üzündə min cür formada namaz qılınaydı. Və gərək hamısı da düzgün sayılaydı. Amma həqiqətdə isə bu iş namazı məhv etmək olardı. Çünki hər adam öz səliqəsinə, öz rəyinə, öz dırnaqarası ictihadına əsasən şəriət hökmü düzəlsəydi, Peyğəmbərin (s) sünnəsinin nə mənası olardı?! Məgər kimsə həzrət Peyğəmbər (s) kimi əli açıq namaz qılsa kafirə oxşayar?!
Qeyd edildiyi kimi səhih hədislərin heç birində Peyğəmbərin (s) namaz qılarkən əllərini bağlaması ilə əlaqədar heç nə yoxdur, eləcə də Peyğəmbərin (s) Əhli-beyindən də heç kim əlləri bağlı namaz qılmamışdır.
Həzrət Muhəmmədin (s) vəfatından sonra xəlifələr tərəfindən camaata əmr olunmuşdur ki, namazda əllərinin bağlasınlar, və bu iş İranlıların o zamaz öz padşahlarına ehtiram etmək tərzi olmuşdur.
Əli bağlamağın özü də əslində Zərdüştliyin hökmüdür. Keyxosrovun Zərdüştlik ayininə baxış əsərində oxuyuruq:
“Onların öz Tanrısı qarşısında ibadət etmək və namaz qılmaq tərzi bəndəçilik əllərini sinələrinə qoyar və bu formada Tanrıya ibadət edərdilər.”
Deməli əllərini sinəyə qoymaq təkcə o vaxtkı İran ordusunun öz Padşahlarının qarşısında

dayanmaq tərzi olmayıb, üstəlik ümumiyyətlə Zərdüştlik dininin namaz qılmaq tərzi olmuşdur. Başqa sözlə desək əlləri bağlı dayanmaq heç də Padşahların əmri olmamış, Zərdüştlik dininin hökmü olmuşdur.

## SON SÖZ

1- Həzrət Muhəmməddən (s) və Əhli-beytdən nəql edilmiş səhih hədislərə əsasən namaz qılanda əlləri açıq, yəni əlləri yana sallayaraq namaz qılmaq vacibdir. Başqa formada, məsələn əlləri sinəyə, qarınına və ya göbəyinin altına qoymaqla qılınan namaz batildir.

2- Əhli-sünnənin özünün də etirafına əsasən həzrət Muhəmməddən (s) namazda əlləri bağlayaraq namaz qılmaq ilə əlaqədar hətta bir səhih hədis də yoxdur.

3- Əhli-sünnənin 4 məzhəbindən heç biri namazda əlləri bağlamağı vacib bilmir, əksinə Maliki məzhəbi əlləri açıq namaz qılmağı vacib bilir. Bu özü namazda əlləri bağlamağın həzrət Muhəmmədə (s) aid olmadığna və o həzrətin sünnəsi olmadığına açıq-aşkar sübutdur.

4- Əhli-sünnə camaatının alimləri deyiblər ki, əlləri bağlayaraq namaz qılmaq Allaha hörmət və ehtiram deməkdir.
Halbuki Allahın dininə itaət etməkdə biz Allaha və Onun Rəsuluna tabe olmağa məcburuq, heç kimin ixtiyarı yoxdur ki, öz səliqəsinə uyğun olaraq dinə, o cümlədən namaza əlavə edə bilsin.
Toy mərasimlərində sağ əli ürəyin üstünə qoyaraq dayanmaq tərzi, həmçinin Hinduların bütxanada dayanma tərzi ehtirama daha çox uyğundur. Amma bu dəlil deyil ki, biz də namazda onlar kimi dayanaq.

5- Əhli-sünnə camaatının bəzi alimləri deyir ki, əlləri bağlamaq ilə qanın barmaqların ucuna yığışmasının qarşısı alınır.
Məgər bu dəlil ola bilərmi ki, buna görə namaz əlləri bağlı qılınsın?!

6- Əhli-sünnə alimlərinin bəzisi bu əqidədədir ki, əlləri bağlı halda namaz qılmaq 1-ci xəlifə Əbu Bəkrin dövründən başlayıb, başqa bir dəstə isə bu əqidədədir ki, əlləri bağlı namaz qılmaq 2-ci xəlifə Ömərin zamanından başlayıb. Bu özü, əli bağlı namaz qılmağın həzrət Muhəmmədə (s) aid olmadığına başqa bir sübutdur. Onların bu işə hökm verməsi barədə tarixlər yazıblar ki, "2-ci xəlifə Ömərin yanına İranlı əsirlər gətirdilər, onlar əllərini sinələrində bağlayaraq dayanmışdılar. Ömər bu duruşun səbəbini soruşdu. Dedilər: Bizlərdə hökmdür ki, Padşahımızın qarşısında belə dayanırıq. Ömərin bu haldan xoşu gəldi. Göstəriş verdi ki, bundan sonra hamı namazda belə dayansın, camaat onun sözünə tabe olaraq namazda əlibağlı dayanmağa başladılar, beləliklə də "Təkfir" yəni əlləri bağlı halda namazda dayanmaq SÜNNƏT oldu.
Mustənədul urvə 4-cü cild 445-ci səhifə
Cəvahirul kəlam 11-ci cild 19-cu səhifə
əl-İtisam bilkitabi vəs sünnə 70-ci səhifə
Son olaraq onu deyək ki, şiələr həzrət Muhəmmədin (s) sünnəsini İmam Əli əleyhissalam, xanım Fatimə əleyhasalam, imam Həsən əleyhissalam, imam Hüseyn əleyhissalam və o biri məsum İmamlardan öyrənirlər.
Əbu Hüreyrə, Kəbul-əhbar və bunlar kimi adamların təqdim etdikləri İslam əlbəttə ki, həqiqi və doğruçu İslam deyil.
Deməli buna əsasən, bu növ ixtilaflı məsələlərdə gərək bu mövzuların köklərinə diqqət yetirək.
Əsas məsələ bundan ibarətdir ki, həzrət Muhəmməddən (s) sonra sünnəsini kimdən öyrənməliyik?!
Həzrət Muhəmməddən (s) sonra o həzrətin canişinləri kimlərdir?!
Salam olsun haqqı tanıyıb onu qəbul edənlərə.